**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TƏLİM FƏALİYYƏTİ ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏTİN MƏNLİK ŞÜURUNUN STRUKTURUNDA ETNOMƏDƏNİ "MƏN"-İN AKTUALLAŞMASI

İxtisas: 6104.01 – Pedaqoji psixologiya

Elm sahəsi: Psixologiya

İddiaçı: **Cəmilə Elşad qızı Səfərova**

fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunan dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2021**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Psixologiya üzrə elmlər doktoru,professor
**Kamilə Ramiz qızı Əliyeva**

Rəsmi opponentlar: Psixologiya üzrə elmlər doktoru, professor **Ramiz İbrahim oğlu Əliyev**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Lalə Adil qızı Əliyeva**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Zülalə Mahmud qızı Aslanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Psixologiya üzrə elmlər doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: Psixologiya üzrə fəlsəfə doktoru
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: Psixologiya üzrə elmlər doktoru, dosent
**Rəşid Vəkil oğlu Cabbarov**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşma şəraitində müasir dövrün əlamətlərindən biri milli mənlik şüurunun, etnik identikliyin və orijinallığın bərpası, cəmiyyətin sosial həyatında etnik amilin rolunun artmasıdır. Doğma dilə, mədəniyyətə və ənənəvi həyat tərzinə maraq artır. Lakin bu, xüsusən, polietnik dövlətdə digər xalqların etnoslarının öyrənilməsini istisna etmir.

Müasir qloballaşma dövründə etnik mənlik şüurunun ifadəsi xalqların yeni şəraitdə öz özəlliyini, ənənəvi mədəniyyətə, dilə, həyat tərzinə dəyərləndirici münasibəti qoruyub saxlamağa can atmasıdır. Bütün bunlar etnik şüurun, etnomədəni Mən-in araşdırılmasının önəmini vurğulayır.

Sosial cəmiyyətin etnik problemləri xüsusilə ağrılı şəkildə qəbul edən qismi kimi, gənc nəslin təmsilçilərinin etnik şüurunun özəlliklərinin tədqiqi həddən artıq önəmlidir. Məhz bu yaş dövründə fərdi dəyərlər orientasiyası sistemi formalaşır və inkişaf edir. Gənc tələbələrin yaş dövrü milli mənlik şüurunun inkişafı, möhkəmlənməsi və qorunması baxımından əhəmiyyətli bir mərhələdir. Aydındır ki, cəmiyyətin rifahı müasir gəncliyin dəyərlər oriyentasiyasının xüsusiyyətlərindən, milli kimliyindən, etnomədəni Mən-in xüsusiyyətlərindən asılıdır.

Müasir dövrdə pedaqojı prosesdə özünütərbiyə, özünü inkişaf etdirmə, gənclərin milli mənlik şüurunun formalaşdırılması məsələlərinə kifayət qədər diqqət yetirilmir, polimədəni təhsil və multikulturalizmin prinsipləri sosial inkişaf amili kimi bir çox hallarda nəzərə alınmır.

Dövlət multikulturalizm siyasəti, müasir təhsil sistemi fəal şəkildə müsbət etnoslararası münasibətlər formalaşdırır. Lakin bu, gənclər, tələbələr mühitində bu və ya digər etnik qrupun neqativ qavranılmasını, həmçinin etnoeqoizmi və millətçiliyi heç də

istisna etmir. Bu sonuncular isə millətlərarası qarşılıqlı münasibətlər və əlaqələrdə mümkün neqativ halları dəstəkləyir. Təhsil alan gənclərin etnik identikliyinin şüurun ən məhrəm hissəsi qismində araşdırılması müasir şəraitdə kifayət qədər aktualdır.

Tələbələrin mənlik şüurunda etnomədəni Mən-in aktuallaşması və onun tədbiqi məsələlərinin formalaşdırılması zərurəti pedaqoji fəaliyyətdə əhəmiyyətli qarşıdurmalara səbəb olur:

- dünya mədəniyyətinin, o cümlədən Azərbaycan mədəniyyətinin qloballaşmaya və unifikasiyaya meyilliyilə etnik dəyərlərinin qorunması zərurəti arasında;
- etnomədəni Mən-in aktuallaşması ilə digər etnik qruplara qarşı tolerant münasibətin formalaşması arasında

Sadalanan ziddiyyətlər milli mənlik şüurunun, etnomədəni Mən-in aktuallaşması üçün tələb olunan şərtlərin müəyyənləşməsinə kömək etməklə yanaşı, təhsil prosesində müasir gənclərdə konstruktiv həyat mövqeyinin formalaşdırılması problemini də ortaya qoyur.

Bu baxımdan, tələbə gənclərin etnik mənlik şüuru probleminin tədqiqi çox vacib və son dərəcə aktualdır.

Psixoloji və pedaqoji ədəbiyyatda tələbə gənclərin etnik mənlik şüurunun müxtəlif aspektləri müzakirə edilir. Milli mənlik şüurunun və etnomədəni Mən-in formalaşmasının əsas psixolojı qanunauyğunluqları tədqiq olunmuşdur (İ.A.Snejkova, T.Q.Stefanenko, V.Y.Xotines, Y.P.Krupnik).

Bu problemlə Y.P.Belinskaya, Y.V.Bromley, Y.N.Kulyutkin, İ.İ.İlyasov, V.T.Lisovski, İ.S.Morozov, V.V.Stolin, V.A.Tişkov, D.İ,Feldşteyn kimi alimlər və b. məşğul olmuşlar. Hazırda bu bu məsələyə pedaqogika və psixologiya mövqeyindən marağın artması müşahidə olunmaqdadır (Q.L.Volkov, İ.S.Kon, N.M.Lebedeva, V.S.Muxina, Q.U.Soldatova, T.Q.Stefanenko, V.Y.Xotines və b.). Polimədəni təhsilin konseptual anlayışlarının

tədqiqi Qukalenko O.V., Curinskiy A.N., Krılova N.B., Suprunova L.L. və başqalarının elmi əsərlərində əks olunmuşdur. Polimədəni təhsilin nəzəri və praktik mexanizmləri Boqomolova M.İ., Karyagina Y.A., Sajin D.V., Şafikova A.V. və başqalarının elmi tədqiqat işlərində nəzərdən keçirilmişdir.

Təhsil alanların tolerantlığının formalaşması və tərbiyə edilməsi vasitələri S.K Bondıryova., Y.İ. Dvornikov, Skovorodkina İ.Z., Tişkov V.A və başqalarının əsərlərində geniş təsvir olunmuşdur.

Azərbaycan Respublikasında yaşa görə inkişaf və etnik sosiallaşma, etnik identiklik problemi K.R.Əliyeva, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, B.H.Əliyev, R.H.Qədirova, G.Q.Hüseynova, İ.M.Məmmədli və b. tədqiqatlarında araşdırma predmeti olmuşdur. RH.Qədirovanın «Azərbaycanlı uşaq və yeniyetmələrin milli identikliyi: sosial-psixoloji təhlil» adlı monoqrafiyasında azərbaycanlı uşaqların və yeniyetmələrinin milli, etnolinqvistik və dini identikliyinin inkişafının sosial-psixoloji aspektləri təhlil edilmişdir.

Mövcud ədəbiyyatın icmalı bizim konkret nəzəri-eksperimental araşdırmamızın problemini anlamağa, onun obyekti, predmeti, məqsəd və vəzifələrini ifadə etməyə imkan verir.

**Tədqiqatın obyekti** – müasir təhsil alan gənclərin etnik mənlik şüurunun şəxsiyyət şüurunun bir cəhəti kimi.

**Tədqiqatın predmeti** – təlim fəaliyyəti şəraitində təhsil alanların etnomədəni Mən-in xüsusiyyətləri etnik mənlik şüurunun struktur komponentləri kimi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi – təhsil alanların mənlik şüurunun strukturunda etnomədəni Məninin aktuallaşdırılmasının özəlliklərinin aşkar edilməsi.

Tədqiqatın problemi, məqsədi, obyekti və predmetinə müvafiq olaraq, onun aşağıdakı vəzifələri müəyyənləşdirilmişdir:

1. Şəxsiyyətin şüurunun strukturunda etnomədəni Mən-in formalaşması xüsusiyyətlərini bu sahədə nəzəri və empirik tədqiqatların nəticələrini ümumiləşdirməklə üzə çıxarmaq.

2. Müasir təhsil alanların etnik şüurunun xüsusiyyətlərini, şüurun strukturunda etnomədəni Mən-in vəziyyətini tədqiq etmək, bu xüsusiyyətlərin yaş baxımından ilkin şərtlərini müəyyənləşdirmək.

3. Təhsil alanların şəxsi şüurunun strukturunda etnomədəni Mənin tədris prosesində aktuallaşdırılması dinamikasını öyrənmək.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasları şüur və şəxsiyyətin «Mən-konsepsiyası» nəzəriyyələri (S.L.Rubinşteyn, İ.İ.Çesnokova, V.V.Stolin, V.S.Muxina, R.Berne və b.), sosial identiklik nəzəriyyəsi (E.Erikson, C.Marsia, X.Tecfel, C.Terner və b.), psixikanın inkişafının mədəni-tarixi konsepsiyası (L.S.Vıqotski), etnik şüur konsepsiyaları (İ.S.Kon, V.Y.Bromley, V.Y.Xotinets və b.), şəxsiyyətin etnik şüurunun etnosun milli əhvalının və etnoslararası gərginliyin indikatoru kimi öyrənilmsinə dair tədqiqatlar (A.V.Şipilov, Q.U.Soldatova və b.), həmçinin tolerantlığın və mədəniyyətlərarası kommunikasiyaların öyrənilməsidir (Q.V.Bezyulyeva, A.P.Sadoxin və b.).

Qarşıya qoyulan vəzifələrin həlli və fərziyyənin yoxlanılması üçün kompleks tədqiqat üsulundan istifadə olunmuşdur. Bu üsul aşağıdakıları ehtiva edir: tədqiqatın probleminə dair elmi ədəbiyyatın nəzəri təhlili; müşahidə, müsahibə və testləşdirmə metodları, məsələn, «Tolerantlıq indeksi» ekspress-sorğu kitabçası, Q.U.Soldatova, S.V.Rıjovun etnik identiklik tiplərinin diaqnostikası metodikası, C.Finnin etnik identikliyin ifadəliliyini ölçən metodikası, O.L.Romanovanın etnik identikliyin tədqiqi üçün şkalalı sorğu kitabçasını, «Etnik şüur» (natamam cümlələr) metodikasını, həmçinin tələbə gənclər mühitində tolerantlıq və etnik identikliyin inkişafı üzrə tərəfimizdən tərtib olunmuş xüsusi treninq proqramı.

Etnik dəyişənlərin önəmli korrelyasiyalarının daha dərindən nəzərdən keçirilməsi üçün SPSS proqramı vasitəsilə statistik təhlil aparılmışdır.

**Tədqiqatın əsas fərziyyəsi** – müasir təhsil alanların (azərbaycanlıların) etnik mənlik şüuru etnomədəni Mənin, etnik identikliyin və tolerantlığın müəyyən ifadəliliyi ilə səciyyələnir ki, onun səmərəli formalaşdırılması təlim fəaliyyətində gerçəkləşdirilir. Tədqiqatın əsas fərziyyəsi üç əlavə fərziyyədən ibarətdir:

1) İkinci dil, mədəniyyətərarası zənginləşmə etnik sosiallaşmanın önəmli amilləridir və bu səbəbdən də tədris dili tələbə qruplarında tolerantlıq və etnik identiklik göstəricilərinə önəmli təsir edən amillərdəndir.

2) Etnik şüurun təşəkkülünün mühüm amili yaş amilidir; tələbələrin etnik identiklik göstəriciləri yuxarı sinif şagirdlərindəkilərinə münasibətdə daha məzmunlu göstəricilər olacaqdır.

3) Tolerantlıq və etnik identiklik səviyyə göstəricilərini tədris prosesində treninq məşğələlərindən yararlanmaq yolu ilə inkişaf etdirmək mümkündür.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Etnomədəni Mən etnik şüurun ən mühüm struktur lementidir və şəxsiyyətin formalaşması səviyyəsi, mədəniyyətlərarası kommunikasiya, polilinqvistik və poli mədəni amillərlə qarşılıqlı əlaqəlidir.

2. Müasir təhsil alanların etnomədəni Məni etnik göstəricilərin əhəmiyyətli dərəcədə formalaşması ilə səciyyələnir ki, bunlar müvafiq etnik stereotiplərdə təzahür edir, özünü etnomədəni Mən-obraz və Biz-obrazın harmoniyasında, özünün etnomədəni özəlliklərinin şüurlu refleksiyasında büruzə verir.

3. Tədris prosesinin gedihində təhsil alanların şüurunda etnomədəni mənin aktuallaşmasında önəmli irəliləyişlər baş verir.

4. Etnomədəni Mənin səmərəli aktuallaşması adekvat etnomədəni yanaşma çərçivəsində polimədəni təhsilin müasir prinsiplərindən yararlanmaqla mümkündür.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində tələbələrin etnik mənlik şüurunun psixoloji özəllikləri, tələbələrin tolerantlığının əhəmiyyətli göstəriciləri üzə çıxarılmış, tədris prosesi şəraitində etnik identikliyin inkişafının yaş dinamikası öyrənilmiş, həmçinin tələbələrdə tolerantlığın və etnik identikliyin inkişafına dair xüsusi treninq proqramı keçirilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** C.Finnin, O.L.Romanovanın, Q.U.Soldatovanın və b. Azərbaycan və rus dillərində təhsil alan tələbələrdə tolerantlığın səviyyəsinin və etnik identikliyin ifadəlilik dərəcəsinin üzə çıxarılması üçün etnik şüurun önəmi barədə konsepsiyanın tamamlanmasından, həmçinin tədris prosesində tələbələrdə yuxarı sinif şagirdlərində etnik identiklik fenomenlərinin tutuşdurulmasındadır. Aparılmış tədqiqat polietnik məkanda ənənəvi etnoslararası qarşılıqlı əlaqə təlim şəraitində şəxsiyyətin etnik şüuru haqqında elmi təsəvvürləri dəqiqləşdirir və genişləndirir. Şəxsiyyətin etnik şüurunun tədqiqatın gedişində üzə çıxarılan xüsusiyyətləri bu biliklərdən praktik pedaqogikada tələbələrin tərbiyə və təliminə onların etnik xüsusiyyətləri nəzərə alınmaqla fərdi şəkildə yanaşılması məqsədilə, həmçinin onlara etnoslararası münasibətlərdə mədəniyyətlərarası anlaşma və tolerant davranma öyrədilməsi üçün istifadə etməyə imkan verir.

Tədqiqatın nəticələrinin əsaslandırılmış və həqiqi olması onun metodoloji və nəzəri müddəalarının məcmusu ilə təmin edilir ki, bunlar problemin araşdırılmasına elmi yanaşmaları müəyyənləşdirməyə və irəli sürülən fərziyyəni tədqiqatın predmeti, məqsəd və vəzifələrinə adekvat metodlar tətbiq etməklə, həmçinin təhsil alanların etnomədəni Məninin aktuallaşdırılmasının üzə çıxarılan psixo-pedaqoji şərtlərinin tədris prosesi şəraitində səmərəliliyinin eksperimental qaydada yoxlanması ilə sübut etməyə imkan verir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələrinin aprobasiyası məqalə və tezislərin çapı, regional və beynəlxalq elmi-praktik konfranslarda iştirakla həyata keçirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, 3 fəsil, (doqquz yarımfəsil), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən (235687 işarədən) ibarətdir.

# İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın mövzusunun aktuallığı açıqlanır, onun işlənmə dərəcəsi, obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, elmi yeniliyi, praktik və nəzəri əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar, işin aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın **«Elmi ədəbiyyatda etnomədəni "Mən" və mənlik şüurunun tədqiqinin nəzəri cəhətləri»** adlanan I fəsli 3 yarımfəsildən ibarətdir.

Birinci yarımfəsildə – **«Etnik şüurun, milli identikliyin müxtəlif psixoloji paradiqmalar axarında araşdırılmasına yanaşmalar»** - etnik şüur fenomenlərinin mahiyyətinin izahına müxtəlif yanaşmalar təhlil edilir, həmçinin qeyd olunur ki, şəxsiyyətin şüurunun və özünüdərkinin tədqiqinə dair psixoloji araşdırmalar psixoloji ədəbiyyatda əhəmiyyətli yer tutur.

Yuxarıda deyilənləri təhlil edərək və problemin tarixi inkişafının ilkin şərtlərini ümumiləşdirərkən qeyd etmək lazımdır ki, bütün etniklik nəzəriyyələri, bir qayda olaraq, etnik fenomenin anlaşılmasına üç yanaşmada cəmlənir – primordialist, instrumental və konstruktivist.

I fəslin **«Mən obrazı – mənlik şüurunun strukturunda hərəkət və yaşamların subyekti kimi»** adlanan ikinci yarimfəslində qeyd edilir ki, şüur və özünüdərk probleminin təşəkkülü və onun struktur komponentlərinin formalaşması mütləq şəkildə Mən-konsepsiyanın etnik identikliyin formalaşmasının komponenti qismində tədqiqini nəzərdə tutur.

Mən-konsepsiyanın tərkib hissələri onun daxili struktur elementləridir (yarımstrukturlar) – Mən-obrazların çeşidləri; real Mən, ideal Mən, dinamik Mən, etnik Mən, fantastik Mən, sosial Mən və s.

Üçüncü yarımfəsildə – **«Şəxsiyyətin etnik sosiallaşmasının xüsusiyyətləri»** - vurğulanır ki, tədqiqatçılar

etnik sosiallaşmada, əsasən, iki önəmli mərhələni fərqləndirirlər – uşaqlıq və yetkinlik.

Son zamanlar etnik sosiallaşmanın xarici amilləri sırasında mühitin polietnikliyi xüsusi önəm kəsb edir. Y.B.Vesnannın xüsusi qeyd etdiyi kimi, dünya həmişə polietnik olmuş və etnoslar arasında münasibətlər həmişə heç də o qədər də sadə olmamışdır. Lakin yaranmış vəziyyətin əe əsas xüsusiyyəti ondadır ki, polietnikliyin müasir cəmiyyətin normasına çevrilməsinin səbəbləri miqrasiya axınlarının intensivləşməsi, əhalinin mobilliyi və qloballaşma proseslərinin təsiri, mədəniyyətlərin etnoslararası qarşılıqlı təsirin və etnik sosiallaşmanın xarakterini dəyişən qarşılıqlı nüfuz etməsidir.

Dissertasiya tədqiqatının II fəsli **«Təlim fəaliyyəti şəraitində mənik şüurunun və etnomədəni Mən-in inkişafı»** adlanır və 4 yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəslində (**«Təlim fəaliyyətinin psixologiyası»**) təlim fəaliyyətinin tarixi, nəzəriyyələri, strukturu interpretasiya edilir. Alimlər tələbələrin tədris fəaliyyətinin psixoloji strukturunun öyrənilməsi və təsvirinə müxtəlif baxımdan yanaşırlar ki, bununla əlaqədar elmi ədəbiyyatda bu fenomenlə bağlı fərqli terminologiyadan istifadə olunur, onun komponentləri və onların struktur təhlilinə dair fikir müxtəlifliyi mövcuddur.

II fəslin ikinci yarımfəsli **«Müasir gənclərin psixoloji xarakteristikası»** adlanır. Yeniyetməlikdə və gənc yaşlarında ontogenezin əvvəlki mərhələlərinə xas olan bir xüsusiyyət – yaşlılardan psixoloji asılılıq demək olar ki, tam dəf edilir, müstəqil şəxsiyyətin təsdiqi baş verir. Həmyaşıdlarla zəngin kommunikasiyalar önəm kəsb edir ki, bu zaman təmasın kollektiv-qrup formalarının qorunub saxlanması ilə yanaşı, fərdi təmasların və bağlılığın əhəmiyyəti artır: İ.S.Kon, N.N.Obozov, A.A.Rean, Y.L.Kolominski və b.

II fəslin üçüncü yarımfəsli **«Müasir tələbə gənclərin etnik identikliyinin inkişafının fenomologiyası»** adlanır.

Yeniyetməlik və gənclik mərhələsində etnik identiklik fəal şəkildə inkişaf edir və dəyişir, onun şəxsiyyətin şüurunda möhkəmlənməsi və təsbiti baş verir. Etnik identikliyin sosial-psixoloji məzmununun bütövlükdə, o cümlədən də gənclər mühitində açıqlanması onun koqnitiv, affektiv, davranış və motivasiya struktur komponentlərinin sintezi vasitəsilə baş verir ki, bunlarda yaşın ümumi özəlliyi əksini tapır. Bu, özünü etnik mənsubiyyətin seçimində refleksivlik və sərbəstlikdə, etnofərqləndirici əlamətlərin geniş spektrinin mövcudluğunda, özü haqqında etnik birliyin üzvü kimi təsəvvürlər sisteminin formalaşmasında, etnik birlik seçiminin dürüst dərk olunan motivlərinin olmasında, həmçinin etnik problemlərə etnoneqativizmə və həssaslığa meyllilikdə büruzə verir. Etnik identikliyin təşəkkülünün ən mühüm determinantları etnoslararası qarşılıqlı əlaqə təcrübəsi və etnotəmas mühitinin xarakteristikalarıdır.

II fəslin dördüncü yarımfəsli **«Dövlət mültikulturalizm şəraitində polimədəni təhsilin xüsusiyyətləri»** adlanır.

Müxtəlif birliklərə mənsub insanların təmasda olduqları polimədəni reallıq şəraitində mədəniyyətlərin qarşılıqlı təsiri və nüfuz etməsi sosiumların öz şüurlarında müxtəlif mədəniyyətləri qovuşduran, onunla dialoqa meylli olan başqasına istiqamətlənən üzvlərinin akkulturasiyasına aparır. Təmasın mədəniyyətlərarası komponenti çoxcəhətli hal olmaqla, təmasda fərqlərin daxili (müxtəlif etnik qrupların təmsilçiləri arasında polimədəni dövlət daxilində ünsiyyətlər) və xarici (müxtəlif dövlətlərin təmsilçiləri arasında ünsiyyət) aspektlərinin öyrənilməsini nəzərdə tutur. Bundan başqa, ünsiyyətin mədəniyyətlərarası xüsusiyyətləri millətlərarası, gender, sosial, demoqrafik, dil və s. fərqlərini ehtiva edir.

Dissertasiyanın **«Təlim fəaliyyəti şəraitində şəxsiyyətin mənlik şüurunun strukturunda etnomədəni "Mən"-in eksperimental tədqiqi»** adlanan III fəsli iki yarımfəsildən ibarətdir.

**«Tədqiqatın təşkili və aparılması»** adlanan birinci yarımfəslində sınaqdan keçirilənlərin seçimi və eksperimental psixoloji tədqiqatın metodikaları təsvir edilir. Tədqiqatda Bakı Dövlət Universitetinin müxtəlif fakültələrində təhsil alan 200 tələbə iştirak etmişdir. Onların 100 nəfəri Sosial elmlər və psixologiya, Filologiya və Tətbiqi riyaziyyat fakültələrinin Azərbaycan bölmələrinin II və III kurs tələbələri, 100 nəfəri isə Sosial elmlər və psixologiya, Filologiya və Tətbiqi riyaziyyat fakültələrinin rus bölmələrinin II və III kurs tələbələri olmuşdur. Bundan əlavə, tədqiqata Bakı Dövlət Universiteti nəzdindəki məktəb-liseydə Azərbaycan dilində təhsil alan 100 gənc oğlan və qız (X və XI sinif şagirdləri) də cəlb olunmuşdur. Beləliklə, eksperimentimizdə 300 nəfər (tələbələr və yuxarı sinif şagirdləri) iştirak etmişdir.

Bütün qruplardan olan sınaq iştirakçıları ilə psixologiya ilə etnik qrupların əlaqəsi, tolerantlıq, dövlət multikulturazizm siyasəti, polimədəni təhsil, tədris prosesində millətlərarası ünsiyyətin nə demək olması və onun tədqiqi metodları barədə görüşlər, məxfi müsahibələr keçirilmişdir.

Eksperimental tədqiqat üç hissədən ibarət idi.

Birinci hissədə Azərbaycan və rus bölmələrinin 200 tələbəsi arasında sorğu keçirilmişdir. Bizim fərziyyəmizə görə, burada təhsil dili amili əsasında etnik identikliyin və tolerantlığın ifadəsinin fərqləri üzə çıxarılmalı idi. Biz güman edirik ki, bu amili ikidillilik, mədəniyyətlərarası kommunikasiya amili kimi də səciyyələndirmək iüikündür. Bu hissədə beş metodikadan istifadə olunmuşdur.

Əldə olunan nəticələrin fərqli olmasının səbəblərini izah etmək üçün biz məktəbdəki məşğələləri izləmə metodundan istifadə etdik, səbəbləri aşkarlamaq üçün müqayisə apardıq. Bunun üçün Azərbaycan və rus bölmələrinin V və VII siniflərində dərslərin gedişinin sərbəst izlənilməsindən istifadə olundu. Tarix və ədəbiyyat kimi fənlər seçildi. Fənnin tədrisi gedişində bir sıra göstəricilərin qeydiyyatı aparıldı – bütövlükdə dərsin məzmunu,

materialın təqdimində müəllimin obyektivliyi-subyektivliyi, tolerantlıq, vətənpərvərlik, Vətənə məhəbbət kimi ali hislərin inkişaf etdirilməsi.

Eksperimental tədqiqatımızın ikinci hissəsində, əlavə olaraq, Azərbaycan bölməsinin 100 yuxarı sinif şagirdi arasında sorğu aparıldı. Tədqiqatın gedişində O.L.Romanovanın etnik identikliyin araşdırılması üçün şkalalı sorğu kitabçası metodikasından istifadə edilmişdir. Bu kitabça universal olmaqla, həm məktəblilər, həm də tələbələr üçün tətbiq oluna bilir. Müqayisə Azərbaycan bölməsinin 100 tələbəsi ilə aparılmışdır. Fikrimizcə, bu yaş amili etnik identikliyin formalaşmasında ən önəmli amillərdən biridir. Bundan başqa, bu, yaş amili olmaqla yanaşı, bizim üçün ondan da daha önəmli olan təhsil pilləsi, pedaqoji proses, tədris prosesində etnomədəni Mənin aktuallaşdırılması və formalaşması amilidir.

Eksperimental tədqiqatımızın üçüncü hissəsində tələbə gənclər mühitində tolerantlığın və etnik identikliyin inkişafına dair xüsusi treninq proqramından istifadə edilmişdir.

III fəslin ikinci paraqrafı **«Əldə olunan məlumatların təhlili»** adlanır.

Tədqiqatımızda birinci metodika – «Tolerantlıq indeksi» üzrə (Q.U.Soldatova, O.A.Kravsova, O.Y.Xuxlayev, L.A.Şaygerova) əldə olunan nəticələr aşağıdakı kimi təqdim olunmuşdur.

Birinci subşkala etnik tolerantlıq göstəricilərini əks etdirir (şək.1). Təhlil göstərmişdir ki, rus bölməsinin tələbələrində etnik tolerantlıq göstəriciləri Azərbaycan bölməsinin tələbələrindəkindən daha yüksəkdir.




Şəkil 1. Etnik tolerantlığın göstəriciləri

İkinci subşkala sosial tolerantlıq göstəricilərini əks etdirir (şək. 2). Nəticələrin təhlili rus bölməsi tələbələrində sosial tolerantlıq göstəricilərinin Azərbaycan bölməsi tələbələrinə nisbətən daha yüksək olduğunu üzə çıxarmışdır.




Şəkil 2. Sosial tolerantlığın göstəriciləri

Üçüncü subşkala tolerantlığın şəxsiyyətin xassəsi qismində göstəricilərini əks etdirir (şək. 3). Nəticələrin təhlili göstərir ki,

«tolerantlıq şəxsiyyətin xassəsi kimi» subşkalası üzrə rus bölməsi tələbələrinin göstəriciləri Azərbaycan bölməsi tələbələrinin göstəricilərindən yüksəkdir.

Şəkil 3. «Tolerantlıq şəxsiyyətin xassəsi kimi» subşkalanın gostəriciləri

Bu metodika üzrə SPSS metodu ilə statistik işlənmə hər üç şkala üzrə göstəricilərlə tədris bölmələri (Azərbaycan və rus)




arasında asılılıq olduğunu üzə çıxarır. T-test cədvəli üzrə önəmli fərqlər müəyyənləşdirilmişdir.

2. Tədqiqatımızda ikinci metodika – etnik identiklik tiplərinin diaqnostikası (Q.U.Soldatova, S.V.Rıjov) üzrə əldə olunan nəticələr irəlidəki şəkillərdə təqdim olunan şkalalarda ümumiləşdirilmişdir. Birinci şkala pozitiv etnik identiklik göstəricilərini üzə çıxarır (şək. 4). Nəticələrin təhlili rus bölməsi tələbələrində pozitiv identiklik göstəricilərinin Azərbaycan bölməsi tələbələrilə müqayisədə daha yüksək olbuğunu göstərir.




Şəkil 4. Pozitiv etnik identiklik şkalasının göstəriciləri

İkinci subşkala etnik indifferentlik göstəricilərini nümayiş etdirir (şək. 5). Nəticələrin təhlili etnik indifferentlik göstəricilərinin rus bölməsi tələbələrində Azərbaycan bölməsi tələbələrilə müqayisədə daha yüksək olbuğunu göstərir.




Şəkil 5. Etnik indifferentlik şkalasın gostəriciləri




Şəkil 6. Etnonihilizm şkalası

Üçüncü subşkala etnonihilizm göstəricilərini əks etdirir (şək. 6). Nəticələrin təhlili rus bölməsi tələbələrilə Azərbaycan bölməsi tələbələrinin göstəriciləri arasında əhəmiyyətli fərqin olmadığını göstərir.

Dördüncü subşkala etnoeqoizm göstəricilərini əks etdirir (şək. 7). Bu şkala üzrə nəticələrin təhlili hər iki bölmənin tələbələrinin etnik eqoizm göstəriciləri, bütövlükdə, bir o qədər də fərqlənmir, mövcud fərqlər isə önəmli deyil.




Şəkil 7. Etnoeqoizm şkalası

Beşinci subşkala etnotəcridolunma göstəricilərini üzə çıxarır (şək. 8). Nəticələrin təhlili göstərir ki, Azərbaycan bölməsi

tələbələrinin bu şkala üzrə göstəriciləri rus bölməsi tələbələrinin göstəricilərindən daha yüksəkdir.




Şəkil 8. Etnotəcridolunma şkalası

Altıncı subşkala milli fanatizm göstəricilərini nümayiş etdirir (şək. 9). Nəticələrin təhlili göstərir ki, Azərbaycan bölməsi tələbələrində milli fanatizm üzrə göstəriciləri rus bölməsi tələbələrinin göstəricilərindən daha yüksəkdir.




Şəkil 9. Milli fanatizm şkalası

Bu metodika üzrə SPSS metodu ilə statistik işlənmə subşkalaların aşağıdakılar üzrə göstəriciləri– pozitiv etnik identiklik, etnik indefferentlik, eğnotəcridolma və etnofanatizm və

tədris bölmələri arasında asılılığın olduğunu, həmçinin «etnonihilizm, etnoeqoizm» göstəriciləri ilə tədris bölmələri (Azərbaycan və rus) arasında asılılığın olmadığını üzə çıxarır.

3. Tədqiqatımızda üçüncü metodika – O.L.Romanovanın məktəb sorğu kitabçası üzrə əldə olunan nəticələr.

Birinci şkala üzrə nəticələrin təhlili göstərir ki, Azərbaycan bölməsinin tələbələrində öz etnik qrupuna mənsub olma hissi göstəriciləri rus bölməsinin göstəricilərindən yüksəkdir (şək. 10).




Şəkil 10. Öz etnik qrupuna mənsub olma hissi şkalası

İkinci şkala etnik mənsubiyyətin önəmini səciyyələndirir. (şək. 11) Nəticələrin təhlili göstərir ki, Azərbaycan bölməsinin tələbələrinin göstəriciləri rus bölməsi tələbələrinin göstəricilərindən yüksəkdir. Bu, ona dəlalət edir ki, Azərbaycan bölməsinin tələbələri üçün etnik mənsubiyyət çox önəmlidir.




Şəkil 11. Etnik mənsubiyyətin önəmi şkalası

Üçüncü şkala etnik əhatənin qarşılıqlı münasibətlərini, yəni çoxluqla azlığın münasibətlərini müəyyənləşdirir (şək. 12). Nəticələrin təhlili göstərir ki, Azərbaycan bölməsinin tələbələrinin göstəriciləri rus bölməsi tələbələrinin göstəricilərindən yüksəkdir. Yəni, Azərbaycan bölməsinin tələbələri etnik çoxluğun dominant olmasını, cəmiyyətdə müəyyən üstünlüklərə malik olmasını düşünməyə daha çox meyllidir.




Şəkil 12. Etnik əhatənin qarşılıqlı münasibətləri şkalası

Bu metodika üzrə SPSS metodu ilə statistik işlənmə hər üç şkala üzrə göstəricilərlə tədris bölmələri (Azərbaycan və rus) arasında asılılıq olduğunu üzə çıxarır. T-test cədvəli üzrə önəmli fərqlər aşkar edilmişdir.

4. Finninin etnik identikliyi ölçən metodikası.

Etnik identikliyin ifadəsinin birinci komponenti koqnitivlikdir (şək. 13). Nəticələrin təhlili göstərir ki, Azərbaycan bölməsinin tələbələrinin etnik identikliyin koqnitiv komponentinin göstəriciləri rus bölməsi tələbələrinin göstəricilərindən yüksəkdir. Bu isə o deməkdir ki, Azərbaycan bölməsi tələbələrində həmin etnik qrupa mənsubiyyətin dərk olunması dərəcəsi, öz etnik qrupunun özəllikləri barədə təsəvvürlər daha yüksəkdir.




Şəkil 13. Etnik identikliyin koqnitiv komponenti şkalası

Etnik identikliyin ifadəsinin ikinci komponenti affektiv komponentdir (şək. 14). Nəticələrin təhlili belə bir faktı üzə çıxarır ki, Azərbaycan bölməsi tələbələrində etnik identikliyin affektiv komponentinin göstəriciləri rusbölməsi tələbələrinin göstəricilərindən yüksəkdir. Bu, öz etnosuna, bütövlükdə, müsbət münasibət olduğundan, həmçinin gənclərdə parlaq ifadəsini tapan öz etnik qrupuna mənsubluq emosional hissindən, öz etnosuna münasibətdə yüksək həssaslıqdan xəbər verir.




Şəkil 14. Etnik identikliyinin affektiv komponenti şkalası

**5**. «Etnik şüur» metodikası respondentlərin cavablarını qeyri-şkala metodu ilə əldə etməyə imkan verir. Bu metod isə keyfiyyət göstəricilərini əks etdirən suallar və cavablardan (yarımçıq cümlələrdən) ibarətdir. Cavabların məzmununun keyfiyyət təhlili Azərbaycan və rus bölmələrində önəmli fərqlər aşkar etməmişdir.

Beləliklə, birinci hissənin eksperimental araşdırması birinci xüsusi fərziyyənin təsdiqini tapdığını göstərmişdir.

Eksperimental tədqiqatın II hissəsi tələbələrlə Azərbaycan bölməsində təhsil alan yuxarı sinif şagirdlərinin etnik identikliyinin üçüncü metodika – O.L.Romanovanın şkalalı sorğu kitabçası ilə müqayisə edilməsindən ibarətdir.

Bu metodikanın birinci şkalası etnik qrupa mənsubiyyət göstəricilərini təqdim edir. Təhlildən aydın olur ki, tələbələrin göstəriciləri yuxarı sinif şagirdlərinin göstəricilərindən daha yüksəkdir.

İkinci şkala etnik mənsubiyyətin önəmini səciyyələndirir. Cədvəlin təhlili yenə də tələbələrin göstəricilərinin yuxarı sinif şagirdlərinin göstəricilərindən yuxarı olduğunu göstərir. Bu isə ona dəlalət edir ki, tələbələr üçün etnik mənsubiyyət daha önəmlidir.

Üçüncü şkala etnik əhatənin qarşılıqlı münasibətlərini, yəni çoxluqla azlığın qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Nəticələrin təhlili göstərir ki, tələbələrdə göstərici yuxarı sinif şagirdlərinin göstəricilərindən daha yüksəkdir. Yəni tələbələr etnik çoxluğun dominant olduğunu, cəmiyyətdə müəyyən üstünlüklərə malik olmalı olduğunu düşünməyə daha meyllidirlər.

Bu metodika üzrə SPSS metodu ilə statistik işlənmə tələbələrlə yuxarı sinif şagirdlərinin göstəriciləri arasında asılılıq, korrelyasiya olduğunu üzə çıxarır.

Beləliklə, eksperimental tədqiqatın ikinci hissəsindəki eksperimental tədqiqat ikinci xüsusi fərziyyənin də təsdiqini tapdığını nümayiş etdirir.

Eksperimental tədqiqatın III hissəsi. Esperimental tədqiqatın birinci hissəsində iştirak etmiş tələbələrdən Azərbaycan bölməsinin 20 tələbəsi və rus bölməsinin 20 tələbəsi ilə tolerantlığın və etnik identikliyin inkişafına dair xüsusi treninq proqramı keçirilmişdir. Azərbaycan bölməsinin tələbələri ilə «Tolerantlıq indeksi» birinci metodikası istifadə olunmuşdur (Q.U.Soldatova, O.A.Kravsova, O.Y.Xuxlayev, L.A.Şaygerova). rus bölməsinin tələbələri ilə isə C.Finnin etnik identikliyin ifadəliliyini ölçən dördüncü metodika istifadə olunmuşdur.

Tolerantlığın və etnik identikliyin inkişafına dair treninqdə iştirak edən Azərbaycan bölməsi tələbələri tolerantlığın aşağıdakı səviyyələrini nümayiş etmişlər: ilkin diaqnostikada – aşağı səviyyə – 10%, orta səviyyə – 70%, yüksək səviyyə – 20%. Treninqdən sonra əldə olunan nəticələr: aşağı səviyyə – 0%, orta səviyyə – 65%, yüksək səviyyə – 35%.

Treninqdə iştirak edən rus bölməsi tələbələri ilkin diaqnostikada etnik identikliyin koqnitiv komponentinin aşağıdakı səviyyələrini göstərmişlər: aşağı səviyyə – 10%, orta səviyyə – 85%, yüksək səviyyə – 5%. Treninqdən sonra əldə olunan nəticələr: aşağı səviyyə – 5%, orta səviyyə – 75%, yüksək səviyyə – 20%.

Rus bölməsi tələbələri ilə aparılan tədqiqatlarda treninqə qədər etnik identikliyin affektiv komponentinin səviyyələri aşağıdakı kimi olmuşdur:  aşağı səviyyə – 20%, orta səviyyə – 45%, yüksək səviyyə – 335%. Treninqdən sonra əldə olunan nəticələr: aşağı səviyyə – 5%, orta səviyyə – 75%, yüksək səviyyə – 20%. Treninqdən sonrakı nəticələr: aşağı səviyyə – 15%, orta səviyyə – 45%, yüksək səviyyə – 40%.

Beləliklə, tədqiqatımız göstərir ki, üçüncü xüsusi fərziyyə təsdiq olunmuşdur.

# ƏSAS NƏTİCƏLƏR

Eksperimental tədqiqatın nəticələri üzrə aşağıdakı **qənaətlərə** gəlinmişdir: elmi təsəvvürlər çərçivəsində etnomədəni Mən psixopedaqoji fenomen kimi müəyyənləşdirilir ki, bu, etnik birliyə malik fərdin koqnitiv, affektiv, davranış komponentlərində eyniləşdirilməsindən ibarətdir.

Beləliklə, əldə olunan nəticələrin təhlili aşağıdakıları təqdim edir.

Eksperimental tədqiqatın I hisəsində beş metodikadan istifadə edilmişdir. Birinci metodika üzrə etnik tolerantlıq, sosial tolerantlıq, tolerantlıq göstəricilərinin şəxsiyyətin xüsusiyyəti qismində təhlili rus bölməsi tələbələrində Azərbaycan bölməsi tələbələrilə müqayisədə daha yüksək tolerantlıq üzə çıxarmışdır. Fikrimizcə, rus bölməsi tələbələrinin daha yüksək tolerantlıq nümayiş etdirmələri mədəniyyətlərarası ünsiyyətdə daha çox iştirak etmələri, daha yüksək polimədəni şəraitdə qarşılıqlı əlaqədə olmaları və təhsil almaları ilə bağlıdır.

İkinci metodika üzrə cədvəl və şəkillərin təhlili göstərir ki, rus bölməsi tələbələrində pozitiv etnik identiklik göstəriciləri və etnik indifferentlik göstəriciləri Azərbaycan bölməsi tələbələrindəkindən daha yüksəkdir. Etnotəcrid və milli fanatizm göstəriciləri isə Azərbaycan bölməsi tələbələrində rus bölməsi tələbələrinə nisbətən daha yüksəkdir. Fikrimizcə, tədris fəaliyyəti şəraitində etnotəcrid və etnik fanatizm kimi göstəricilər etnik baxımdan yekcins mühitdə daha çox inkişaf edir.

Üçüncü metodika üzrə cədvəllərin və şəkillərin təhlili göstərir ki, Azərbaycan bölməsi tələbələrində öz etnik qrupuna mənsubluq, milliyyətin önəmli olması, etnik çoxluqla azlığın qarşılıqlı münasibətləri hisləri rus bölməsi tələbələrindəkindən yüksəkdir. Hesab edirik ki, belə nəticələr yekcins etnik mühitdə interaksiyalarla, başqa xalqlar və mədəniyyətlər barədə aşağı səviyyədə etnik kompetentliklə determinə olunmuşdur.

Dördüncü metodika üzrə cədvəllərin və şəkillərin təhlili göstərir ki, Azərbaycan bölməsinin tələbələrində etnik identikliyin koqnitiv və affektiv komponenti götəriciləri rus bölməsi tələbələrindəkindən yüksəkdir. Fikrimizcə, Azərbaycan bölməsi tələbələrində öz etnik qrupunun xüsusiyyətləri haqqında biliklər, təsəvvürlər daha sabit və dayanıqlıdır, həmçinin onlar öz enosuna və mədəniyyətlərinə daha emosional şəkildə bağlıdırlar.

Eksperimental tədqiqatın II hissəsində istifadə olunan bir metodika Azərbaycan bölməsində təhsil alan həm tələbələr, həm də yuxarı sinif şagirdlərilə iş zamanı tətbiq olunmuşdur. Bu hissədə tələbələrin göstəricilərinin yuxarı sinif şagirdlərinin göstəricilərilə müqayisədə yüksək olması ona dəlalət edir ki, ontogenetik inkişafın yaş amili, həmçinin təhsilin daha yuxarı pilləsi etnik fenomenlərin təşəkkülünə önəmli təsir göstərir.

Eksperimental tədqiqatın III hissəsində Azərbaycan və rus bölmələrinin tələbələri iştirak etmişlər.

Treninq üzrə gəlinən qənaətlər bunlardır. Etnomədəni treninqin səmərəsi aşağıdakılardan ibarətdir: tolerantlıq səviyyəsi yüksəlmişdir, etnik identikliyin koqnitiv komponenti göstəriciləri azacıq artmışdır, etnik identikliyin affektiv komponenti göstəriciləri isə, bütövlükdə, dəyişməmişdir. Treninqin nəticələri göstərir ki, pedaqoji şəraitdə etnik identikliyin komponentlərinin, etnomədəni Mənin inkişafına təsir göstərmək mümkündür.

Etnomədəni Mən, etnik identiklik, mədəniyyətlərarası kommunikasiya problemi qloballaşma, plimədəni təhsil fonunda son dərəcə aktualdır.

Fikrimizcə, etnomədəni Mən, etnik identiklik mədəniyyətlərarası qarşılıqlı əlaqənin və mədəniyyətlərarası etibarlılığın təməlidir.

Tədqiqatımızda qarşıya nəzəri, metodoloji və empirik vəzifələr qoyulmuşdu.

Nəzəri vəzifələr etnomədəni Mənin, etnik identikliyin formalaşması və inkişafı probleminin predmeti ilə bağlı nəzəriyyə və konsepsiyaların araşdırılmasından ibarət idi.

Metodik vəzifələri etnomədəni Mən, etnik identiklik probleminin öyrənilməsi proqramının formalaşdırılmasının metodoloji və metodiki prinsiplərinin müəyyənləşdirilməsi, adekvat metodoloji vasitələrin seçimi təşkil edirdi.

Empirik vəzifələrə aşağıdakılar aid edilmişdi: tədris şəraitində tələbələrdə etnomədəni Mənin, etnik identikliyin özəlliklərinin eksperimental tədqiqinin planlaşdırılması və həyata keçirilməsi, respondentlərdə tədris dili və pilləsindən asılı olaraq, etnomədəni Mənin, etnik identikliyin, etnik tolerantlığın xüsusiyyətlərinin müqayisəli təhlilinin aparılması, həmçinin treninq proramına qədər və ondan sonra əldə olunan göstəricilərin müqayisəsi.

Tədqiqat nəticəsində əldə olunan nəzəri və praktik faktlar etnomədəni mənin, etnik identikliyin psixoloji xüsusiyyətlərinin şərhini əhəmiyyətli dərəcədə zənginləşdirir, orijinal ideyaların tətbiqi isə millətlərarası ünsiyyətin optimallaşdırılmasına yardımçı olur, həmçinin polimədəni təhsil və dövlət multikulturalizm siyasəti şəraitində müxtəlif etnik qrup insanlarının səmərəli interaksiyası və sosial persepsiyası (qavrayışı) üçün ilkin şərait yaradır.

Tədqiqatın nəticələri təsdiq etdi ki, müasir təhsilalanların (azərbaycanlıların) etnik şüuru etmədəni Mənin, etnik identikliyin və tolerantlığın müəyyən ifadəsi ilə səciyyələnir ki, bunun səmərəli formalaşması tədris fəaliyyətində həyata keçirilir.

İkinci dil, mədəniyyətlərarası zənginləşmə etnik sosiallaşmanın önəmli amilləri olduğundan, tədris dili tələbə qruplarında tolerantlıq və etnik identiklik göstəricilərinə əhəmiyyətli təsir göstərir. Bu müddəalara müvafiq olaraq, biz rus bölməsində tolerantlığın daha yüksək səviyyəsini və Azərbaycan bölməsi tələbələrində etnik identikliyin ifadəsinin daha yüksək səviyyəsini müəyyənləşdirmişik.

Etnik şüurun təşəkkülünün önəmli amillərindən biri də yaş və təhsil pilləsi amilidir. Şəxsiyyət şüuru məcrasında inkişaf

edərək və aktuallaşaraq, etnik şüur inkişafın yaş dinamikasına malikdir.

Tələbələrlə tədqiqatlarda etnik tolerantlıq göstəriciləri ilkin diaqnostikası ilə tolerantlığın və etnik identikliyin inkişafı üzrə xüsusi treninq proqramının keçirilməsindən sonrakı göstəricilər arasında fərqlər olmuşdur. Treninqin nəticələri tolerantlıq səviyyəsi, həmçinin etnik identikliyin koqnitiv komponenti göstəricilərinin cüzi artdığına dəlalət edir.

Əldə olunan nəticələrin praktik əhəmiyyəti, fikrimizcə, çox əhəmiyyətlidir, çünki pedaqoji və etnik psixologiya sahəsində araşdırmaların yeni perspektiv istiqamətini müəyyənləşdirir.

Beləliklə, görülən nəzəri və praktik işləri yekunlaşdıraraq, aşağıdakı nəticələrə gəlmək olar:

1. Tədris fəaliyyəti şəraitində gənclərdə sosial qarşılıqlı əlaqə problemlərinə, etnik identikliyin inkişaf etdirilməsinə marağı gücləndirmək mümkündür.

2. Etnomədəni mən, etnik identiklikgənclərin davranışının dəyər meyllərini göstərir, cəmiyyətdə pozitiv və ya neqativ etnik fenomenlərin inkişafının antisipasiyasına yardımçı olur.

3. Pedaqoji fəaliyyətdə etnik şüurun və etnomədəni Mənin formalaşması və inkişafına polimədəni təhsil prinsipləri nəzərə alınmaqla daha çox diqqət yetirilməlidir.

Problemin sonrakı araşdırılması istiqamətləri aşağıdakılar ola bilər:

- müxtəlif gender qruplarının, milli qrupların etnomədəni Məninin, etnik identikliyinin tədqiqi;

- pedaqoji amillərin etnomədəni Mənin, etnik identikliyin formalaşmasına təsirinin tədqiqi.

**Dissertasiya işinin əsas elmi müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Научно-теоретические проблемы этнического самосознания// - Bakı: “Psixologiya” jurnalı, - 2014. №1, - s.26-32
2. Психологические особенности развития человека в полиэтнической среде// Təhsil, Şəxsiyyət və cəmiyyət. Respublika elmi-praktik konfransı, – Bakı: - 2014, - s.155-157
3. Некоторые рассуждения о поликультурной личности// - Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, - 2017. №4(32), - s.275-280
4. Особенности этнического сознания, национальной идентичности в русле различных психологических теорий// - Bakı: ADU-nun elmi xəbərləri, - 2017. №3, - s.197-204
5. Некоторые подходы изучения этнического самосознания, Я-концепции// - Bakı: AMEA-nın “Elmi əsərlər” beynəlxalq elmi-nəzəri jurnalı, - 2017. №2(29), - s.188-196
6. Этническое самосознание: этапы становления// Матеріали V міжнародної науково-практичної конференції «Становлення молодого фахівця: сучасні тенденції», - Краматорськ: - 2017, - s.89-95
7. Особенности развития этнического самосознания в условиях учебного процесса как научная проблема// - г.Тольятти: Азимут научных исследований: педагогика и психология, - 2016. №4(5), - s.396-399
8. Психологические основы поликультурного образования// “Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri – 2018” adlı elmi konfrans, - Bakı: - 2018, - s.613-615
9. Особенности поликультурного образования в условиях государственной политики мультикультурализма// - Херсон: Збірник Наукових Праць Педагогічні Науки, - 2017. Випуск Lxxviv Том 3, - s.38-44

10. Психологические особенности формирования и развития этнической идентичности и толерантности в учебной деятельности// - Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, - 2019. №3, - s.212-217
11. Воспитание чувств патриотизма и толерантности в условиях поликультурной педагогической деятельности// Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, - Bakı: - 2018, - s.368-370
12. The Psychological Dimensions Of Multicultural Education// UMYOS, 7th International Vocational Schools Symposium, - Bakı: - 2018, - s.414-416
13. Characteristics of Ethnic Identity Among Students// - Peru: Propósitos y Representaciones, - 2020. №8(2), - s.464-475

Dissertasiyanın müdafiəsi 05 noyabr 2021-ci il tarixində saat 12.00-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ - 1148, Bakı şəhəri, Z. Xəlilov küç 23, Əsas bina.
Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 oktyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: ____________

Kağızın formatı: ____________

Həcm: ________

Tiraj: ____